Bu gün iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə Azərbaycan Davos Dünya İqtisadi Forumunun, Dünya Bankının hesabatlarında yüksək pillələrdə qərarlaşır, islahatçı dövlət kimi seçilir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və gələn ay açılışı nəzərdə tutulan Trans-Anadolu (TANAP) qaz boru kəməri kimi qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olan ölkəmiz Avropada etibarlı tərəfdaşa və regionun lider dövlətinə çevrilmişdir. Respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi dövlətimizin dünyada yüksək nüfuzunu təcəssüm etdirir.

Ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu da xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyev ocağına olan sevgisini daha da gücləndirir.

Ötən dövrdə dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi olaraq ədliyyə və məhkəmə sisteminin inkişafına da xüsusi önəm verilmişdir. Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişlənmiş, Ədliyyə Akademiyası, regional ədliyyə idarələri, xüsusi notariat institutu, probasiya xidməti təsis edilmiş, elektron reyestrlər və informasiya sistemləri yaradılmaqla vətəndaşların ədliyyə təsisatlarına çıxışı xeyli asanlaşmışdır.

Eyni zamanda, ölkə Prezidentinin tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artmasına, məhkəmə hakimiyyətinin müstəqilliyinin güclənməsinə xidmət edən mütərəqqi islahatlar aparılmış, bu sahədə qanunvericilik təkmilləşmiş, hakimlərin şəffaf seçim qaydası müəyyən olunaraq hakim korpusu 60 faiz təzələnmiş, yeni məhkəmələr və məhkəmə hakimiyyətinin özünüidarə orqanları yaradılmış, müasir İKT-nin, dövlət başçısının Sərəncamı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və məhkəmə infrastrukturunun müasirləşməsi üzrə əməli tədbirlər görülmüşdür.

Böyük qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq Ulu Öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha əzmkarlıqla çalışmalıyıq.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyev siyasi irsidir. Bu hədsiz sərvətin öyrənilməsi üçün konfranslar təşkil olunur, Azərbaycan tarixinin Heydər Əliyev dönəmində əldə olunmuş nailiyyətlər, demokratik hüquqi dövlət quruculuğunda Heydər Əliyevin irsi barədə çıxışlar edilir və digər tədbirlər həyata keçirilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Ədliyyə Nazirliyi tərəfindən də silsilə tədbirlər keçirilir. Ədliyyə işçiləri Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edərək əziz xatirəsinə əbədi ehtiramlarını bildirirlər. Gənc əməkdaşlar nazirlikdə Heydər Əliyev muzeyi ilə tanış olurlar, ədliyyə orqanlarında yığıncaqlar, "dəyirmi masa"lar keçirilir, ixtisasartırma kurslarında xüsusi mövzular tədris edilir. Müxtəlif kütləvi idman yarışları, xeyriyyə tədbirləri, o cümlədən qanvermə aksiyası təşkil olunur, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilir. Həmçinin, Heydər Əliyevin 95 illik yubileyi münasibətilə xüsusi stend hazırlanıb, nazirliyin kinozalında Ulu Öndərin zəngin həyatından və titanik fəaliyyətindən bəhs edən filmlər nümayiş etdirilir.

Ümummilli Liderin yubileyi münasibətilə Ədliyyə Nazirliyi tərəfindən keçirilmiş "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" mövzusunda geniş elmi-praktiki konfrans xüsusilə qeyd olunmalıdır. Ədliyyə Nazirliyi rəhbərliyinin və məsul işçilərinin, Məhkəmə-Hüquq Şurası üzvlərinin, hakimlərin, prokurorların, vəkillərin, elm-tədris müəssisələri, vətəndaş cəmiyyəti nümayəndələrinin, alimlərin, gənc hüquqşünasların və KİV-lərin iştirakı ilə ötən gün Ədliyyə Akademiyasında keçirilmiş tədbirdə məzmunlu və elmi təhlillərə əsaslanan məruzələrin edilməsi, müzakirələrin keçirilməsi Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi və aşılanması baxımından olduqca böyük əhəmiyyət kəsb etmişdir.

Şübhəsiz ki, Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini sonadək öyrənmək qeyri-mümkündür. Ulu öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə isə bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə hünər rəmzinə çevrilir.

Hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidiyik. Müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimləri tərəfindən dünya miqyasında böyüklüyü etiraf edilən, o cümlədən ABŞ-ın sabiq Prezidenti Corc Buşun "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putinin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi bu günlərdə yenidən göz önündə canlanır, qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri,**
**I dərəcəli dövlət ədliyyə müşaviri.**

# Ulu Öndərin müəllifi olduğu Konstitusiyanın qəbulu dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən biridir

## *Konstitusiya Məhkəməsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü qeyd edilib*

**Xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ilk milli Konstitusiyamızın müəllifi Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə mayın 7-də Konstitusiya Məhkəməsində tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ulu öndər Heydər Əliyevin SSRİ dövründəki fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyinin gücləndirilməsi istiqamətində misilsiz xidmətlərindən danışıb. Bildirilib ki, XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycana rəhbərlik etmiş bu dahi şəxsiyyətin adı xalqımızın tarixinə böyük xilaskar kimi həkk olunub. Hələ sovet dövründə Azərbaycanın rəhbəri vəzifəsinin icrasına başladığı ilk gündən etibarən Heydər Əliyev o zamana qədər bu vəzifədə olmuş rəhbərlərdən fərqlənən yeni bir yanaşma tərzi göstərərək diqqəti respublikanın gələcəyinə dair təxirəsalınmaz məsələlərin həllinin vacibliyinə yönəltmişdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə uzaqgörənliklə atılmış addımlar, Azərbaycanda əsası qoyulan güclü sosial, mədəni, iqtisadi və intellektual sərmayə gələcəkdə xalqımızın istiqlaliyyət qazanması üçün zəmin hazırlayan vacib milli potensial rolunu oynayıb.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyev iqtisadi siyasətin hazırlanıb həyata keçirilməsinə, iqtisadiyyatın dinamik inkişafına da daim qayğı göstərib. Bu istiqamətdə Heydər Əliyevin neft strategiyası başlıca yer tutur. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ulu öndər Heydər Əliyevin neft strategiyasının əsas tərkib hissələrindən biri idi. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul sammitində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə nəqlinə dair saziş imzalanıb. 2006-cı ilin yayında fəaliyyətə başlayan həmin kəmərə Heydər Əliyevin adı verilib. Ümummilli Liderin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın əsas neft istehsalı mərkəzlərindən birinə çevrilib.

Fərhad Abdullayev qeyd edib ki, Azərbaycan müstəqilliyinin bərpasından sonrakı ilk illərdə hərbi təcavüz, torpaqlarımızın 20 faizinin işğal olunması, iqtisadi tənəzzül, siyasi qeyri-sabitlik, hüquqi qeyri-müəyyənlik, orduda nizam-intizamsızlıq və digər problemlərlə qarşı-qarşıya qalmışdı. Azərbaycan dövlətçiliyi üçün taleyüklü bir dönəmdə qətiyyətli siyasi iradə nümayiş etdirərək ölkənin milli maraqlarını təmin edə biləcək tarixi şəxsiyyətə olan ehtiyac, xalqın təkidli tələbi ilə müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə nəticələndi. Ulu Öndər uzaqgörən və məqsədyönlü fəaliyyəti ilə Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi anarxiyadan xilas etdi, xalqımızı müstəqil Azərbaycan və azərbaycançılıq ideyası ətrafında birləşdirərək öz tarixi missiyasını yerinə yetirdi. Bu dövrdən başlayaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin bərqərar edilməsi Azərbaycan Respublikasının inkişafının əsas istiqamətləri kimi müəyyənləşdirildi.

Sədr vurğulayıb ki, hüquqi dövlət quruculuğunu öz inkişafının başlıca istiqaməti kimi seçən Azərbaycanda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə irimiqyaslı məhkəmə-hüquq islahatları reallaşdırıldı, sovet dönəmindən miras qalmış hüquq sistemi tamamilə yeni, demokratik prinsiplər əsasında quruldu, institusional səviyyədə bir sıra yeni təsisatlar yaradıldı, beynəlxalq birliyə sürətli inteqrasiya sahəsində əhəmiyyətli nailiyyətlər qazanıldı. Ölkəmizdə başlanılmış islahatlar fonunda ən mühüm hadisələrdən biri 1995-ci il noyabrın 12-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyətinin yaradılmasına və hüquq sisteminin müasir tələblərə uyğun formalaşmasına geniş imkanlar açıb.

Fərhad Abdullayev qeyd edib ki, Konstitusiyanın qəbulundan sonra ölkəmizdə qanunun aliliyinin, insan hüquqlarının və əsas azadlıqların müdafiəsinin təmin edilməsi məqsədilə genişmiqyaslı məhkəmə-hüquq islahatlarının aparılması, Azərbaycanda peşəkar hakim korpusunun formalaşması, cinayət və mülki mühakimə icraatında demokratik, hüquqi dövlətə xas olan prinsiplərin həyata keçirilməsini təmin etmək mümkün oldu. Məhz aparılan islahatlar sayəsində ölkəmizdə yeni üçpilləli məhkəmə sistemi təsis edilib, qanunvericilik sistemi beynəlxalq standartlara uyğunlaşdırılıb, məhkəmə hakimiyyətinin müstəqilliyinin və hakimlərin statusunun əsasları qanunvericilikdə təsbit edilməklə onların fəaliyyəti üçün zəruri şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, insan hüquq və azadlıqlarının müdafiəsini dövlətin ali məqsədi elan etmiş Konstitusiyanın aliliyinin təmin edilməsi, orada təsbit olunmuş insan hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi məqsədilə 1998-ci il iyulun 14-də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılıb. Konstitusiya Məhkəməsinin yaradılması məhz Ulu Öndərin adı ilə bağlıdır. Heydər Əliyev tərəfindən yaradılan Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı gündən üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə və fəaliyyətini təkmilləşdirməklə məsuliyyətli işini həyata keçirməyə çalışır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş genişmiqyaslı məhkəmə-hüquq islahatları keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq uğurla davam etdirilir.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun yaradılması Azərbaycan dövlətinin cəmiyyətə ünvanlanan ali məqsədlərinin reallaşdırılması yolunda tarixi nailiyyətə çevrilib. Yarandığı gündən Fondun qarşısına qoyduğu məqsədlər miqyası ilə fərqlənib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond əsas diqqəti vətəndaşların həyatı, sağlamlığı, təhsili ilə bağlı olan bütün sahələrə yönəltdi. Məqsədlər o qədər aydın və ali oldu ki, Heydər Əliyev Fondu qısa vaxtda yardıma ehtiyac duyan hər bir kəsin ümid yerinə çevrildi, ötən illərdə Ulu Öndərin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyənləşdirdiyi ideyaların reallaşmasına dəstək verdi.

Tədbirdə Konstitusiya Məhkəməsinin hakimi Südabə Həsənova çıxış edərək dahi şəxsiyyət Heydər Əliyevin nəsillərə nümunə ola biləcək zəngin həyat və fəaliyyətindən, mənalı ömrünün hər birimiz üçün əvəzsiz örnək olmasından, onun xalq və ölkə qarşısındakı unudulmaz xidmətlərindən, rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımlarından danışaraq, xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

Tədbirin sonunda sədr Fərhad Abdullayev bildirib ki, ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət nəticəsində bütün sahələrdə sürətlə inkişaf edərək beynəlxalq miqyasda özünə layiqli yer tutan Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında qərarlaşıb. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları qanunçuluğun və hüquq qaydasının daha da möhkəmlənməsinə, Azərbaycanın dünya birliyində daha fəal inteqrasiyasına və demokratik imicinin yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha inamını qat-qat artırıb. Bu siyasət Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna, müasir güclü dövlətimizin yaradılmasına möhkəm əminlik yaradıb. Aprelin 11-də keçirilmiş prezident seçkilərinin nəticələri xalqın İlham Əliyevə etimadını bir daha nümayiş etdirib.

Sonda ümummilli lider Heydər Əliyevin mənalı həyatı və zəngin siyasi fəaliyyətini əks etdirən sənədli film nümayiş edilib.

**AZƏRTAC**

# "Heydər Əliyev" portretinin təqdimat mərasiminin iştirakçıları Ulu Öndərin məzarını ziyarət ediblər

**Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən "Heydər Əliyev" portretinin təqdimat mərasiminin iştirakçıları mayın 7-də Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

**AZƏRTAC**

# Respublika Ağsaqqallar Şurasının üzvləri ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov və Şuranın üzvləri ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar Fəxri xiyabanda olub, Ümummilli Liderin məzarını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, onlar ulu öndər Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarları üzərinə gül dəstələri düzüb, xatirələrini ehtiramla anıblar.

Fəttah Heydərov jurnalistlərə müsahibəsində bildirib ki, Heydər Əliyev hələ keçmiş Sovet İttifaqı dövründə Azərbaycanı dünyaya tanıdıb, onun təşəbbüsü ilə Azərbaycan dili dövlət dili kimi Konstitusiyada təsbit olunub.

Respublika Ağsaqqallar Şurasının sədri ulu öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurucusu olduğunu, onun siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

**AZƏRTAC**

# "Heydər Əliyev" portretinin təqdimat mərasimi olub






**Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə mayın 7-də Bakıda tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Ulu Öndərin Azərbaycanın Əməkdar Rəssamı Sakit Məmmədov tərəfindən çəkilən portretinin təqdimatı olub.

Azərbaycanın Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərinin miqyası çox böyükdür. Xalqımız hər zaman onun xatirəsini uca tutur, hər an onu xatırlayır. Əlbəttə, bu gün ölkəmizin hər bir yerində Ulu Öndərin nişanələri görünür. Biz ümummilli Lideri təkcə doğum günü ərəfəsində xatırlamırıq, onun əziz xatirəsi hər zaman qəlbimizdə yaşayır.

Hər il Ulu Öndərin doğum günü ərəfəsində Yeni Azərbaycan Partiyası tərəfindən bu cür ənənəvi tədbirlərin keçirildiyini xatırladan Baş nazirin müavini bugünkü tədbirin forma etibarilə fərqləndiyini vurğulayıb.

Əli Əhmədov ölkəmizin qazandığı hər bir uğurun təməlində Ulu Öndərin əsasını qoyduğu siyasətin dayandığını bildirib. O deyib ki, Azərbaycan bu gün ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyir. "Ulu Öndərin 95 illik yubileyi ərəfəsində qeyd edə bilərik ki, bu 95 ilin 75 ili xalqa xidmətlə keçib. Çünki Heydər Əliyev dünyasını dəyişəndən sonra da onun ideyaları, əsasını qoyduğu ənənələr, müəyyənləşdirdiyi siyasət Azərbaycan xalqına xidmət edir", - deyə Baş nazirin müavini vurğulayıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan vətəndaşları ümummilli Liderə məhəbbətlərini müxtəlif formalarda ifadə edirlər. Azərbaycan gəncləri Heydər Əliyev ideologiyasını, onun müəyyənləşdirdiyi yolu mənimsəməklə Ulu Öndərin xatirəsinə öz hörmət və ehtiramlarını ifadə edirlər. Sənət adamları, yaradıcı insanlar Ulu Öndərlə bağlı sənət əsərləri, tablolar yaratmaqla Heydər Əliyev şəxsiyyətinə öz hörmət və ehtiramlarını ifadə edirlər. Azərbaycanın çox görkəmli sənətkarlarından olan rəssam Sakit Məmmədov tərəfindən yaradılan bu portret ulu öndər Heydər Əliyevin müdrüklüyünü, qüdrətini özündə ifadə edir.

Sonra portretin üzərindəki örtük götürülüb.

Çıxış edən Əməkdar Memar, Dövlət mükafatı laureatı Rasim Əliyev bildirib ki, Ulu Öndər xalqımız qarşısındakı misilsiz xidmətləri, xilaskarlıq missiyası ilə Azərbaycan tarixinə öz adını qızıl hərflərlə yazıb. Ümummilli Liderlə bağlı xatirələrini bölüşən Rasim Əliyev bildirib ki, Heydər Əliyev hələ gənc yaşlarından elmə böyük marağı ilə diqqət çəkən vətənpərvər bir insan idi.

Çəkdiyi "Heydər Əliyev" portreti münasibətilə Sakit Məmmədovu təbrik edən Rasim Əliyev deyib: "Bu əsərdə rəssam ulu öndər Heydər Əliyevin daxili aləmini çox böyük ustalıqla ifadə edə bilib. Əsərdə Sakit Məmmədov Azərbaycan xalqının xilaskarını, dövlətimizin qurucusunu çox böyük məharətlə təsvir edib. Bu, tarixi əsərdir. Xalqımız bu əsəri daim qoruyacaq".

Daha sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova çıxış edərək təqdim olunan portretin rəssam Sakit Məmmədovun yaradıcılıq nailiyyətlərinin parlaq zirvəsi olduğunu vurğulayıb. Kompozisiyanın məntiqi və nəzəri mərkəzi olan ümummilli lider Heydər Əliyevin obrazı əsərin daxili əhval-ruhiyyəsini müəyyən edir. Rəssam əsərdə Ulu Öndərin xüsusi ruh yüksəkliyi ilə aram və rahat vəziyyətdə oturuşunu təsvir edib. Bu rahatlıq və əminlik onun böyük tarixi və fərdi missiyasının parlaq nəticəsidir. Ümummilli Liderin müdrik baxışı əsərin mühitinə və tamaşaçısına daxili nikbinlik və qürur bəxş edir.

Rəssam Sakit Məmmədov onun hazırladığı əsərə verilən yüksək qiymətə görə təşəkkürünü bildirib.

**AZƏRTAC**

# Bakıda "Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası" mövzusunda elmi-praktiki konfrans keçirilib

**Mayın 7-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası" mövzusunda elmi-praktiki konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, Şuranın sədri, Milli Məclisin deputatı Azay Quliyev tədbiri açaraq ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin hər bir soydaşımız üçün əzmkarlıq, mübarizə və qalibiyyət nümunəsi olduğunu söyləyib. Bildirib ki, Ulu Öndərin müstəqil dövlət quruculuğu sahəsində gördüyü işləri təhlil edib geniş ictimaiyyətə çatdırmaq və nəsillərin yaddaşında daim yaşatmaq dövlət əhəmiyyətli strateji məsələdir.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı mühüm xidmətlərindən danışıb. O bildirib ki, Heydər Əliyevin xatirəsi hər bir vətənpərvər azərbaycanlının qəlbində yaşayır və yaşayacaq. Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərinin ön sırasında onun 1993-cü ildə dövlətimizin xilas edilməsi missiyası durur. Hər il qeyd etdiyimiz 15 iyun - Milli Qurtuluş Günü onun xilaskarlıq missiyasının başlanğıcıdır. Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan xilas etdi. Xalqımız bu xidməti hər zaman yüksək qiymətləndirir. Müstəqil Azərbaycan dövlətinin xilası məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider 1993-cü ildə xalqımızın birliyinə nail olmasaydı, dövlətimizin gələcəyindən danışmaq mümkün olmazdı. Hazırda Azərbaycanda milli birliyə əsaslanan sabitlik var. Ümummilli Liderimiz hələ Naxçıvanda olarkən ziyalılara çağırış edirdi. O qeyd edirdi ki, xalq birləşməlidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən biri də ölkəni inkişaf yoluna çıxarmasıdır. Onun hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə inkişaf başladı. Azərbaycanda bazar iqtisadiyyatının inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər həmişə deyirdi ki, iqtisadiyyatın təməli sağlam qoyulmalıdır, hər bir vətəndaş özünü orada görməlidir. Bu gün Ulu Öndərimizin siyasi kursunu Prezident İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Hazırda Azərbaycan regionun lider dövlətidir. Azərbaycan böyük inkişaf dövrünü yaşayır.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan dövləti Heydər Əliyevin hakimiyyətə gəldiyi 1993-cü ildən başlayaraq QHT-lərlə əməkdaşlıq kursu həyata keçirir. İlk dəfə Azərbaycan iqtidarı məhz Heydər Əliyevin hakimiyyəti dövründə QHT-lərə tərəfdaş kimi baxmağa başladı və bunun nəticəsi olaraq, Azərbaycan Prezidenti yanında Qeyri- Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bu gün də Şura öz fəaliyyətini uğurla həyata keçirir. Ə.Həsənov qeyd edib ki, Heydər Əliyev 15 ildir ki aramızda olmasa da, onun əziz xatirəsi millətini, xalqını sevən hər bir vətənpərvər azərbaycanlının qəlbində yaşayır.

Əli Həsənov bildirib ki, ümummilli lider Heydər Əliyevin mühüm xidmətlərindən biri də azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə gətirməsi oldu.

Ümummilli Liderin əsas xidmətlərindən biri də Azərbaycanın siyasi, ictimai inkişafının istiqamətlərini müəyyənləşdirməsi və bunu Konstitusiyada təsbit etməsidir. 1993-cü ildə Azərbaycan müxtəlif modellər seçə bilərdi. Ümummilli Lider hakimiyyətə gələrkən başqa model də seçə bilərdi. Əminəm ki, Ulu Öndərin nüfuzu elə güclü idi ki, hansı modeli seçsəydi, qəbul olunardı. O isə məhz ən mükəmməl yolu - Azərbaycan Xalq Cümhuriyyətinin müəyyən etdiyi inkişaf yolunu seçdi.

Prezidentin köməkçisi bildirib ki, Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafında önəmli rol oynayır. Ümummilli Liderin qurduğu Azərbaycan nəinki regionun aparıcı ölkələrindən biridir, eləcə də dünyada böyük nüfuza malikdir.

Konfransda Şuranın sifarişi ilə hazırlanmış, ümummilli lider Heydər Əliyevə həsr edilən "Alilikdə sadəlik" adlı qısametrajlı sənədli filmin təqdimatı olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov "Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası: proses və nəticə" mövzusunda məruzə ilə çıxış edib. Akademik məruzəsində beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq Azərbaycanın inkişaf templərini konkret faktlarla göstərib. Bildirilib ki, ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi əsaslarını yaradıb. Ümummilli Liderin müstəqillik konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uzaqgörənliyi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı böyük uğurlarda bir daha tarixi təsdiqini tapır. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövr ölkəmizdə müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün etibarlı təməlin yaradılması, milli mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunub. Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Ulu Öndərin xidmətləri misilsizdir. Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı Ümummilli Liderin adı ilə bağlı olmasın.

Toplantıda QHT rəhbərləri Məhərrəm Zülfüqarlı, Tamam Cəfərova və Mirhəsən Seyidov çıxış edərək ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında göstərdiyi xidmətlərdən danışıblar.

Sonra ümummilli lider Heydər Əliyevin 95 illiyi münasibətilə Şuranın sifarişi ilə hazırlanmış, sözləri və musiqisi İlahə İsrafilovaya məxsus "Sən dahisən" kompozisiyanın "Avanqard" Kamera orkestrinin, Azərbaycan Milli Konservatoriyasının xor kollektivinin və müğənnilər - Xalq Artisti Heydər Anatollu, İlahə Qismət və Orxan Cəlilovun ifasında təqdimatı olub.

**AZƏRTAC**

# "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" mövzusunda elmi-praktiki konfrans keçirilib



**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ədliyyə orqanlarında geniş qeyd edilir, silsilə tədbirlər keçirilir.**

Mayın 7-də Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Ədliyyə Akademiyasında "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" mövzusunda geniş elmi-praktiki konfrans keçirilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, nazirliyin rəhbərliyi və məsul işçiləri, Məhkəmə-Hüquq Şurasının üzvləri, hakimlər, prokurorlar, vəkillər, elm və tədris müəssisələrinin nümayəndələri, alimlər, gənc hüquqşünaslar, vətəndaş cəmiyyətinin və media təmsilçiləri iştirak ediblər.

Konfransda ümummilli lider Heydər Əliyevin demokratik hüquqi dövlət quruculuğu naminə titanik fəaliyyətindən, müasir hüquq sisteminin formalaşması və inkişafında müstəsna rolundan bəhs olunub, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi, Ulu Öndərin təməlini qoyduğu mütərəqqi ədliyyə və məhkəmə islahatlarının nailiyyətləri qeyd edilib.

Ədliyyə naziri F.Məmmədov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə çıxış edib.

Bildirib ki, Ulu Öndər uzaqgörənliyi, müdrikliyi, qətiyyəti və dəmir iradəsi sayəsində xalqımızı müstəqilliyimizi yenidən itirmək təhlükəsindən xilas edərək ictimai-siyasi sabitliyi və qanunçuluğu bərqərar edib, ölkəmiz demokratik hüquqi dövlət quruculuğu yolunu seçərək bütün sahələrdə köklü mütərəqqi islahatlar aparılıb.

Müasir ədliyyə və məhkəmə sisteminin inkişafının bilavasitə Ümummilli Liderin adı ilə bağlı olduğunu vurğulayan nazir Heydər Əliyev dühası ilə ölkəmizdə məhkəmə, ədliyyə, prokurorluq və digər hüquq mühafizə fəaliyyətinin yenidən qurulduğunu və onların gələcək inkişafının təməlinin qoyulduğunu bildirib, bu sahədə islahatların Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini və qazanılmış nailiyyətləri qeyd edib. Nazir Azərbaycanın özü qədər əbədi olan bu fenomenal şəxsiyyətin şərəfli ömrünün və siyasi irsinin indiki və gələcək nəsillərə nümunə olduğunu bildirib, işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını söyləyib.

Konfransda ümummilli lider Heydər Əliyev tərəfindən ədliyyə orqanlarının, prokurorluq və vəkillik təsisatlarının müasir dövrün tələbləri səviyyəsində qurulması, müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması və yerli demokratiyanın bərqərar olunması, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, hüquqşünas kadrların yetişdirilməsi ilə bağlı aparılan islahatlara dair çıxışlar dinlənilib, Ulu Öndərin insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi tədbirlər, gənclər siyasəti, vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı və digər mövzular üzrə müzakirələr aparılıb.

Yubiley ərəfəsində, ədliyyə orqanlarında yığıncaqlar, "dəyirmi masa"lar keçirilir, gənc əməkdaşlar nazirlikdə Heydər Əliyev muzeyi ilə tanış olurlar, ixtisasartırma kurslarında xüsusi mövzular tədris edilir. Eyni zamanda, müxtəlif kütləvi idman yarışları, xeyriyyə tədbirləri, o cümlədən qanvermə aksiyası təşkil olunur, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilir. Heydər Əliyevin 95 illik yubileyi münasibətilə xüsusi stend hazırlanıb, nazirliyin kinozalında Ulu Öndərin zəngin həyatından və titanik fəaliyyətindən bəhs edən filmlər nümayiş olunub.

**AZƏRTAC**

# Hərbi Prokurorluqda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib

**Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mayın 7-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.**







Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransda Azərbaycan Respublikası baş prokurorun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Hərbi Prokurorluğun əməkdaşları, Milli Məclisin deputatları Musa Quliyev, İlham Məmmədov və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Respublika Hərbi Prokurorluğunun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin abidəsi önünə əklil qoyub və gül dəstələri düzərək bu böyük şəxsiyyətə dərin ehtiramlarını bildiriblər.

Konfransda əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi-praktiki konfransda çıxış edən hərbi prokuror Xanlar Vəliyev dahi şəxsiyyətin çoxşaxəli, şərəfli, mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, dövlətimiz və millətimiz qarşısındakı misilsiz xidmətlərindən söz açaraq, Ulu Öndərin müəyyən etdiyi, Azərbaycanın parlaq gələcəyinə hesablanmış siyasi kursu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə edilmiş böyük nailiyyətləri diqqətə çatdırıb.

Hərbi prokuror bildirib ki, bir qərinədən də çox zaman kəsiyində ölkəmizin rəhbəri olmuş ümummilli lider Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb. Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə tarixin ən sərt və çətin sınaqlarından keçən xalqımız əxz etdiyi milli dövlətçilik ənənələrini vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanıb, müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb.

Xanlar Vəliyev qeyd edib ki, müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə nicat axtaran xalqımızın yeganə ümidi olan ulu öndər Heydər Əliyev belə bir mürəkkəb vəziyyətdə - 1993-cü ildə xalqın təkidli çağırışı ilə respublika rəhbərliyinə qayıtdı. Dahi rəhbər dərin təfəkkürü, iti zəkası, polad kimi mətin iradəsi, müdrikliyə söykənən qeyri-adi cəsarəti və bənzərsiz qətiyyəti sayəsində millətimizi və dövlətimizi böyük bəlalardan xilas edərək Azərbaycanı keçmiş Sovet İttifaqından miras qalmış rejimdən çıxararaq, ölkəmizin güclü iqtisadiyyatı olan demokratik, hüquqi və dünyəvi dövlətə çevrilməsinə müvəffəq olub.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və çağdaş mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və siyasi fəaliyyəti boyu həmin prinsiplərə istinad etməsi bu fenomenal şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillər idi.

Azərbaycan xalqının ən parlaq şəxsiyyətlərinin fövqündə dayanan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi, həmçinin gərgin əməyi və yorulmaz fəaliyyəti ilə respublikamızda aparılan islahatlar və əldə olunmuş böyük nailiyyətlərdən bəhs edən Xanlar Vəliyev son 15 il ərzində ölkəmizin sürətlə və hərtərəfli inkişaf etməsini, dövlətimizin daha da qüdrətlənməsini xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycan ötən dövrdə misli görünməmiş uğurlar əldə etməklə, iqtisadiyyatının 3,5 dəfədən çox artmasına, 1,6 milyondan çox yeni iş yerinin açılaraq işsizliyin 5 faizə endirilməsinə, yoxsulluq səviyyəsinin 10 dəfəyə qədər azaldılmasına nail olub. Bununla yanaşı, maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı müasir silah və digər hərbi texnika ilə zənginləşdirilmiş, şəxsi heyəti dərin nəzəri biliklərə və peşəkar vərdişlərə malik hərbçilərlə komplektləşdirilmiş, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşdırılıb. Habelə ölkənin müasirləşməsi sahəsində irimiqyaslı layihələr icra olunub, paytaxt Bakı ilə yanaşı, regionlar da sürətli inkişaf etdirilib, insanların yaşayış və əmək şəraiti əsaslı yaxşılaşdırılıb.

Xanlar Vəliyev bildirib ki, ölkədə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, dünya tarixi-mədəni irsinin inkişafına və tolerantlığa xüsusi önəm verilməsi, beynəlxalq hüquqa və dünyada mövcud olan siyasi dəyərlərə sədaqət Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla, dünya dövlətləri sırasında mövqeyini gücləndirib.

Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlardan danışan hərbi prokuror bu nailiyyətlərin qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Xanlar Vəliyev Birinci vitse-prezident Mehriban xanımın böyük dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin hərtərəfli və sürətli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahının yaxşılaşdırılması, dövlətimizin, xalqımızın, mədəniyyətimizin və milli dəyərlərimizin bütün dünyaya tanıdılması istiqamətində zəngin və çoxşaxəli fəaliyyəti barədə ətraflı məlumat verib.

Milli Məclisin deputatı Musa Quliyev və İlham Məmmədov böyük şəxsiyyət Heydər Əliyevin zəngin və mənalı həyatından, ali idarəçilik təcrübəsindən, onun uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməsindən danışıblar.

Sonda Xanlar Vəliyev aprelin 11-də Azərbaycan xalqının növbəti dəfə düzgün seçim etdiyini, bu müdrik seçimin Ümummilli Liderə və Prezident İlham Əliyevə xalqda yaranmış sonsuz inam və sevgidən irəli gələn zərurətdən doğduğunu xüsusi vurğulayaraq bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən siyasətin Azərbaycan Prezidenti tərəfindən uğurla davam etdirilməsində, o cümlədən dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, qanunun aliliyinin təmin edilməsində yaxından iştirak etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan bu siyasəti daim dəstəkləyəcək.

Tədbir əbədiyaşar öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatıb.

**AZƏRTAC**

# Statistika Komitəsində Ulu Öndərin anadan olmasının 95 illiyi qeyd olunub

**Mayın 7-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunan tədbir keçirilib.**



Əvvəlcə ulu öndər Heydər Əliyevin komitənin foyesində ucaldılan büstü önünə gül dəstələri düzülüb. Azərbaycanın böyük oğlu Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəyliyimizin və azərbaycançılıq məfkurəsinin banisi, xalqımızın və dövlətimizin xilaskarı ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz tarixi xidmətlərindən danışıb. O bildirib ki, Ümummilli Lider ölkəmizə rəhbərliyinin bütün dövrlərində xalq, dövlət, cəmiyyət üçün yorulmadan fəaliyyət göstərib, dünya şöhrətli dövlət xadiminin əvəzsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur. Fenomen şəxsiyyət Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mühüm işlər görüb. Bütün ömrünü xalqa həsr etmiş ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən biri və ən başlıcası uğurlu dövlət quruculuğu prosesinin əsasını qoymasıdır.

Tahir Budaqov xüsusi vurğulayıb ki, ulu öndər Heydər Əliyev müdrikliyi, onun təkcə dövrünün qayğı və problemləri ilə yaşaması, zamanı qabaqlayaraq irəlini görməsi, gələcəkdə ölkəni uğurla idarə edə biləcək lider yetişdirməsindədir. Dahi rəhbərin müəyyən etdiyi siyasi kursu xalqımız yekdilliklə dəstəkləyərək onun davam etdirilməsini Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi və bayraqdarı, bütün fəaliyyətini Azərbaycan dövlətinin strateji maraqlarının aliliyinə və işıqlı gələcəyinə həsr edən Prezident İlham Əliyevə etibar edib. 2018-ci il aprelin 11-də xalqımız tərəfindən səbirsizliklə gözlənilən şanlı və tarixi seçim Azərbaycanın getdikcə artan siyasi nüfuzunun növbəti parlaq qələbəsi və Heydər Əliyev siyasətinin uğurlu təntənəsidir. Bir həqiqətdir ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində ciddi uğurlar əldə edilib, xalqımız və dövlətimiz üçün, sözün əsl mənasında, taleyüklü sayılan, həyat əhəmiyyətli transmilli layihələr reallaşıb.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi Azərbaycanın hər guşəsində, eləcə də azərbaycanlıların yaşadıqları xarici ölkələrdə böyük təntənə ilə qeyd olunmaqdadır. Bu tədbirlər tarixi şəxsiyyət olan Heydər Əliyevin misilsiz xidmətlərinə qədirbilən xalqımız tərəfindən verilən qiymətin, sonsuz ehtiram və sevginin, inamın təzahürüdür.

Dövlət Statistika Komitəsinin dayanıqlı inkişaf statistikası şöbəsinin müdiri Rasim Səfərov, informasiya texnologiyaları şöbəsinin sistem təminatı və texniki xidmət sektorunun müdiri Səyavuş Əhmədov, kənd təsərrüfatı statistikasi şöbəsinin aparıcı məsləhətçisi Aygün Məmmədova öz çıxışlarında ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən strategiyasının Azərbaycanı böyük perspektivlərə doğru apardığını, ulu öndərin əbədiyaşar ideyaları ətrafında sıx birləşən xalqımızın daim yeni-yeni zəfərlərə imza atacağını vurğulayıblar.

Sonra Ulu Öndərin xatirəsinə həsr olunan komitə gəncləri arasında keçirilmiş minifutbol üzrə ənənəvi idman turnirinin qalibləri mükafatlandırılıb.

Tədbir ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan filmin nümayiş olunması ilə başa çatıb.

**AZƏRTAC**

# Ümummilli lider Heydər Əliyev hər zaman qaçqın və məcburi köçkünlərə xüsusi qayğı ilə yanaşıb

**Mayın 7-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin Komitənin foyesində yerləşən büstü önünə gül dəstələri qoyublar.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev ümummilli lider Heydər Əliyevin keçdiyi həyat yolu haqqında danışaraq bildirib ki, Ulu Öndər Azərbaycan xalqının yetişdirdiyi dahi şəxsiyyətdir. O, bütün təcrübəsini, siyasi biliklərini ölkəmizin və xalqımızın inkişafına sərf edib. Komitə sədri ümummilli lider Heydər Əliyevin hər zaman qaçqın və məcburi köçkünlərə xüsusi qayğı ilə yanaşdığını vurğulayıb. Qeyd edib ki, bu gün bu siyasət Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən Milli Məclisin mədəniyyət komitəsinin sədri Rafael Hüseynov ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. O deyib ki, görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçı Heydər Əliyevin fəaliyyəti müasir tariximizin ən mühüm mərhələlərini əhatə edir. Bildirib ki, Ulu Öndərin qətiyyəti, güclü siyasi iradəsi, böyük təcrübəsi sayəsində müasir Azərbaycan dövləti qurulub və ölkəmiz beynəlxalq arenada özünə layiqli yer tutub. Qeyd edilib ki, Azərbaycan dövləti yaşadıqca ulu öndər Heydər Əliyevin xatirəsi xalqımız tərəfindən daim ən yüksək hörmət və ehtiramla yad ediləcək.

Sonra ulu öndər Heydər Əliyevin qaçqın və məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən film nümayiş olunub.

**AZƏRTAC**

# Ulu Öndərin xatirəsi yad olundu





**Dövlət Sərhəd Xidmətində xalqımızın xilaskarı, müstəqil Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin 95-ci ildönümü münasibəti ilə silsilə tədbirlər keçirilir. Xüsusi tədbirlər planına əsasən sərhədçi hərbi qulluqçuların xidməti ərazilərdə yerləşən Heydər Əliyev İdeoloji Mərkəzlərinə ekskursiyaları təşkil olunur, hərbi hissələrdə konfranslar, seminarlar, tematik axşamlar, disputlar keçirilir, Ulu Öndərin nəsillərə nümunə olan həyat və fəaliyyəti barədə filmlər nümayiş etdirilir, mühazirələr oxunur.**

Bu tədbirlər çərçivəsində may ayının 7-də Dövlət Sərhəd Xidməti Aparatında "Heydər Əliyev və Azərbaycan Sərhəd Mühafizəsi" mövzularında elmi-praktiki konfrans keçirilmişdir. Tədbirdən əvvəl Dövlət Sərhəd Xidməti Aparatının hərbi qulluqçuları Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən zəngin foto-ekspozisiya ilə tanış olmuş və Ulu Öndərin büstünün önünə gül dəstələri qoymuşlar.

Dövlət himninin səslənməsi ilə başlanan rəsmi hissədə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açılmış, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmiş, Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən danışılmışdır.

Konfransda millət vəkili, Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsi sədrinin müavini Aydın Mirzəzadənin "Heydər Əliyev şəxsiyyəti Azərbaycan dövlətçiliyinin parlaq simvoludur" mövzusunda məruzəsi dinlənilmişdir.

Konfrans iştirakçılarına Azərbaycan Sərhəd Mühafizəsinin inkişafına Ulu Öndər Heydər Əliyevin ali diqqət və qayğısını əks etdirən "Heydər Əliyev və Azərbaycan Sərhəd Mühafizəsi" mövzusu şərh edilmiş və Ulu Öndərin sərhədçilərlə görüşləri zamanı sərhəd təhlükəsizliyinin gücləndirilməsinə dair tapşırıq və tövsiyələri interaktiv təqdimat formasında nümayiş etdirilmişdir.

Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirdə böyük dövlət xadiminin müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanmışdır. Ulu Öndərin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların Ulu Öndər Heydər Əliyevin əmanət qoyub getdiyi ideyalarının təntənəsi olduğu xüsusi qeyd edilmişdir.

Tədbirdə Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Azərbaycanda qazanılan bütün nailiyyətlər Heydər Əliyev siyasətinin bəhrəsidir






**Mayın 7-də Bakı Dövlət Universitetində (BDU) ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov ümummilli lider Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən, böyük xilaskarlıq rolundan danışıb. Heydər Əliyev dövlətçilik təcrübəsinin əhəmiyyətini diqqətə çatdıran rektor Ulu Öndərin elmə, təhsilə daim böyük önəm verdiyini vurğulayıb, Heydər Əliyev ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Rektor müdrik şəxsiyyət Heydər Əliyevin Bakı Dövlət Universitetinin məzunu və fəxri doktoru olduğunu qürur hissi ilə vurğulayıb.

Azərbaycanın dünya ölkələri arasında özünə layiqli yer tutduğunu qeyd edən akademik A.Məhərrəmov deyib: "Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Ümummilli Lideri var!"

Tədbirdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən film nümayiş olunub.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, siyasətinin uğurlu nəticələrindən bəhs edib.

Deputat Ulu Öndərin ideyalarının, Azərbaycançılıq ideologiyasının əhəmiyyətini diqqətə çatdırıb.

BDU-nun professoru, Milli Məclisin deputatı Fəzail İbrahimli dahi rəhbər Heydər Əliyevin bütün həyatını və fəaliyyətini doğma Vətənə, xalqın xoşbəxtliyinə həsr etdiyini bildirib. Azərbaycanın dünya ölkələri arasında özünə layiqli yer tutduğunu deyən professor qazanılan nailiyyətlərin Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu vurğulayıb.

**AZƏRTAC**

# Heydər Əliyev Beynəlxalq Aeroportuna dünyanın ən nüfuzlu mükafatı təqdim olunub







**Heydər Əliyev Beynəlxalq Aeroportu hava limanlarının auditi sahəsində ən nüfuzlu "Skytrax World Airport Awards"-un maksimal "5 Ulduz" statusuna layiq görülüb.**

Təntənəli mükafatlandırma mərasimi mayın 7-də Bakıda keçirilib. Mərasim çərçivəsində həmçinin Bakı hava limanının girişində yerləşən və onun 5 ulduz statusunu simvolizə edən stelanın açılışı olub. Tədbir iştirakçıları eyni zamanda yeni aerovağzal kompleksi Terminal 1-də yaradılan şəraitlə də tanış olublar.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportu ilə yanaşı, bütün dünya üzrə bu ən yüksək statusa cəmi 8 aeroport layiq görülmüşdür.

"Bizim hər bir növbəti qələbəmiz ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin mülki aviasiya sahəsinə, eləcə də bütün kollektivin gərgin əməyinə böyük diqqət və qayğısının göstəricisidir. "Skytrax" kimi nüfuzlu audit şirkəti tərəfindən ən yüksək qiymətləndirməyə layiq görülmək həm Azərbaycanın mülki aviasiyası, həm də ümumiyyətlə ölkə üçün çox böyük nailiyyətdir. "5 ulduz" reytinqi son illərdə ölkəmizdə bu sahənin inkişafı üzrə görülən böyük işlərin bariz nümunəsidir", - deyə "Azərbaycan Hava Yolları"nın Prezidenti Cahangir Əsgərov bildirmişdir.

"Skytrax"-ın baş direktoru Edvard Pleysted isə qeyd etmişdir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunu bu böyük nailiyyət - 5 ulduzlu regional aeroport



reytinqinə layiq görülməsi münasibətilə təbrik edirəm. Bu yüksək qiymətləndirmə müştəri xidməti sahəsində böyük keyfiyyət nişanıdır. Heydər Əliyev Beynəlxalq Aeroportunun rəhbərliyi son üç ildə genişmiqyaslı iş aparmışdır və nəticədə regional aeroport üçün ən yüksək qiymətləndirməyə nail olmuşdur.

Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi (Terminal 1) 2014-cü il 23 aprel tarixində istifadəyə verilmişdir. Onun ümumi sahəsi 65 min kvadratmetr təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev yeni terminalın açılış mərasimində çıxış edərkən hava nəqliyyatının inkişafının Azərbaycanda dövlətin öz dəstəyini əsirgəmədiyi prioritet məsələlərdən biri olduğunu qeyd edərək demişdir: "Burada sərnişinlər üçün bütün lazımi şərait yaradılmışdır. Çox rahat istirahət zonaları, ictimai yerlər, böyük hollar tikilmişdir. Yuxarıdan baxanda isə bu bina qanadlarını açmış böyük quşa bənzəyir. Necə ki, bu gün Azərbaycan da inkişafdadır, Azərbaycan da öz qanadlarını geniş açmışdır, irəliyə gedir, iqtisadi inkişaf templərinə görə dünyada birinci yerdədir".

Son bir neçə ildə Azərbaycan paytaxtının hava limanı sərnişin dövriyyəsinin stabil artımını nümayiş etdirir. 2017-ci ildə sərnişin axını 4 milyon nəfərdən çox olmuşdur. 30-dan çox aviaşirkət 40-dan artıq müxtəlif istiqamət üzrə Heydər Əliyev Beynəlxalq Aeroportundan müntəzəm və çarter reysləri yerinə yetirir.

Qeyd edək ki, "Skytrax" tərəfindən keçirilən və 550 hava limanı arasında sərnişinlərə xidmət və şəraiti qiymətləndirən aeroportların qlobal inspeksiyası dünya hava limanı sənayesi üçün keyfiyyət etalonu sayılır. İnspeksiya və mükafat hava limanının nəzarəti və müdaxiləsindən asılı olmayaraq hava limanının mükəmməllik və keyfiyyəti üzrə obyektiv göstəricidir. İnspeksiya dövründə "Skytrax" həmçinin 100 ölkədən 13,73 milyon sərnişin arasında sorğu keçirmişdir.

**Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidməti.**

# Azərbaycan ilə İranın enerji sahəsində əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib

**İranda səfərdə olan Azərbaycanın energetika naziri Pərviz Şahbazov mayın 7-də bu dövlətin energetika naziri Reza Ardakanian ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkənin enerji sistemləri arasında həyata keçirilən elektrik enerjisi mübadiləsi, elektrik enerjisinin satışı ilə bağlı görülən tədbirlər, "Xudafərin" və "Qız qalası" hidroqovşaqları, eyni zamanda, "Ordubad" və "Marazad" Su Elektrik Stansiyalarının tikintisi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb. Bu istiqamətdə görülən işlər, eləcə də bu yaxınlarda İranın enerjinin istehsalı, ötürülməsi və paylanması üzrə şirkəti "TAVANİR" ilə "Azərenerji" ASC arasında elektrik enerjisinin alqı-satqısı üzrə müqavilənin imzalanması elektroenergetika sahəsində əməkdaşlığı dərinləşdirən addımlar kimi qiymətləndirilib.

Görüşdə, həmçinin Azərbaycan-İran-Rusiya arasında elektrik enerjisi dəhlizinin yaradılması da müzakirə edilib. Üç ölkə arasında elektrik enerjisi sistemlərinin birləşdirilməsinin optimal variantının müəyyənləşdirilməsi üçün davamlı müzakirələrin məqsədəuyğunluğu qeyd edilib.

Görüş zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

**AZƏRTAC**

# Baş Prokurorluğun, Dövlət Təhlükəsizliyi Xidmətinin və Dövlət Gömrük Komitəsinin mətbuat xidmətlərinin birgə məlumatı

## *Külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil dəstə ifşa edilib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən biri əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılmasıdır. Dövlətin daim diqqət mərkəzində dayanan bu sahədə aparılan islahatların müsbət göstəricisi kimi ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılmasına nail olunub. Eləcə də dərman vasitələrinin beynəlxalq keyfiyyət standartlarının tələblərinə uyğun hazırlanması, istehsalı və satışı ilə bağlı hüquqi prosedurların təkmilləşdirilməsi istiqamətində məqsədyönlü dövlət tədbirləri həyata keçirilməkdədir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin və Dövlət Gömrük Komitəsinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bununla belə, səhiyyə sisteminin mühüm sahəsi olan əczaçılıqda bir sıra sahibkarlıq subyektlərinin daha çox gəlir əldə etmək üçün qeyri-leqal fəaliyyətlə məşğul olmaları, habelə gizli iqtisadi fəaliyyətin nəticəsi kimi vergidən yayınmaları və digər qanunsuz yollarla ölkədə qeyri-bərabər rəqabət mühiti formalaşdırmaları bazar iqtisadiyyatının inkişafına mənfi təsir göstərməklə yanaşı, əhalinin sağlamlığına ciddi təhlükə yaradır. Son dövrlər bəzi hüquqi və fiziki şəxslər tərəfindən mənşəyi məlum olmayan və dövlət qeydiyyatından keçməyən keyfiyyətsiz dərman vasitələrinin qanunsuz dövriyyəsinin həyata keçirilməsi, bəzi vəzifəli şəxslərin bu qanunsuzluqlara şərait yaratması ictimaiyyətdə haqlı narazılıqlara səbəb olub. Belə şəxslərin hüquq mühafizə orqanları tərəfindən görülən ardıcıl tədbirlərdən nəticə çıxarmamaları qeydiyyatsız dərman vasitələrinin qanunsuz idxalının qarşısının alınması istiqamətində kompleks əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsini zəruri edib.

Aprelin 30-da keçirilmiş birgə tədbirlər zamanı belə qanunsuz fəaliyyətlə məşğul olan mütəşəkkil dəstə müəyyənləşdirilərək ifşa edilib. Belə ki, görülmüş tədbirlər nəticəsində Bakı Beynəlxalq Hava Limanındakı Bakı Karqo Terminalından gömrük nəzarətindən yük maşınında çıxarılaraq dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan Məmmədov Anar Kamran oğluna məxsus yaşayış sahəsinə daşınan dövlət qeydiyyatından keçməmiş, ölkəyə buraxılması qanunsuz olan 53 adda ümumi dəyəri 108 min 819 manat təşkil edən müxtəlif dərman vasitələri aşkarlanaraq saxlanılıb. Yasamal rayonunda yerləşən, Anar Məmmədova məxsus "Zeytun" aptekinə Səhiyyə Nazirliyinin əməkdaşlarının iştirakı ilə baxış zamanı dövlət qeydiyyatından keçməmiş, mənşəyi məlum olmayan 75 adda müxtəlif dərman vasitələri aşkarlanaraq götürülüb. Davam edən araşdırmalarla Yasamal rayonu ərazisindəki "İrem", "Qlükoza", "Avas", "Fatimə", Nəsimi rayonu ərazisindəki "Zeytun", "Medical City", "Elit", "Vahid", "Dokta Elite", Nərimanov rayonu ərazisindəki "Şəfa", "Şəfa Zeytun 426", "Təbib" apteklərinə satılmış, dövlət qeydiyyatından keçməmiş müxtəlif sayda dərman vasitələri aşkarlanaraq dövriyyədən çıxarılıb.

İlkin istintaqla müəyyən edilib ki, xarici ölkə vətəndaşı Ateş Atanur, Azərbaycan Respublikasının vətəndaşı Anar Məmmədov 2016-cı ildən indiyədək satış məqsədilə dərman vasitələrinin ölkəyə qanunsuz yollarla gətirilməsini müntəzəm təşkil ediblər. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin vəzifəli şəxsləri bu dərmanların yük müşayiət sənədlərini dəyişdirərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Mərkəzi Gömrük Hospitalına çatması nəzərdə tutulan başqa məhsullar adı altında bəyan edilməsini, bu yolla qeyd olunan dərmanların ölkəyə qeydiyyatsız keçirilməsini təşkil etməyə görə əvvəlcədən hər yükün ümumi dəyərinin 25 faizi miqdarında haqq alıb, dərmanların ölkəyə qeydiyyatsız idxalına, gömrük nəzarətindən çıxarılaraq birbaşa dərman satışı ilə məşğul olan şəxslərə çatdırılmasına şərait yaradıblar.

Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işi üzrə toplanmış ilkin sübutlar əsasında gömrük orqanlarında vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə qaçaqmalçılıq və külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməllərinə görə Məmmədli Fərman Həmzə oğluna, Xıdırov Vasif Teymur oğluna, Mehtiyev Cəmil Səlim oğluna, Atanur Ateş Adem oğluna, Məmmədov Anar Kamran oğluna, həmçinin Quliyev Ələmət Nazim oğluna müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2-ci, 200-1.2.3-cü (dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2-ci, 206.3.3-cü (qaçaqmalçılıq) və 314.2-ci (səhlənkarlıq) maddələri ilə ittiham elan olunmaqla barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Dövlət Gömrük Komitəsinin rəhbərliyi tərəfindən Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyev, Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyev, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Birinci yük şöbəsinin rəisi Araz Məmmədov və digərləri tutduqları vəzifələrdən azad edilərək sərəncama götürülüblər.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin XV iclası öz işinə başlayıb




**Mayın 7-də Milli Məclisdə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin XV iclası öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək iclasın birinci günündə Azərbaycan-Avropa İttifaqı arasında hərtərəfli sazişlə bağlı danışıqların cari durumu, ölkəmizdə siyasi dialoq və islahatlar, iqtisadi əməkdaşlıq, enerji, nəqliyyat məsələlərinə dair müzakirələr aparılıb.

İclası açan Avropa İttifaqı-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir FEYZİYEV bildirib ki, Avropa İttifaqı və Azərbaycan parlamentləri arasında birillik fasilədən sonra 2016-cı ilin sonunda bərpa olunan əlaqələr bu gün çox intensiv xarakter alıb. 2017-ci ildə Azərbaycan nümayəndə heyəti dəfələrlə Brüsselə və Strasburqa səfər edib, eləcə də Avropa Parlamentinin nümayəndələri il ərzində Azərbaycana gəliblər. Hesab edirik ki, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında genişlənən əlaqələrdə parlamentlərarası əməkdaşlığın rolu çox böyükdür.

"Biz Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin zamanın nəbzini tutaraq inkişaf etməsindən çox razıyıq", - deyən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad KƏRİM qurumla ölkəmiz arasında ortaq çağırışların olduğunu söyləyib. O, mövcud əlaqə və əməkdaşlıqdan danışaraq bildirib ki, Azərbaycanın ticarətinin yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Avropa İttifaqı ölkələrinin neftə tələbatının müəyyən hissəsini də Azərbaycan təmin edir. Avropa İttifaqı "Cənubi Qafqaz Qaz Dəhlizi" layihəsinə böyük önəm verir. Əməkdaşlığın təkcə enerji ilə məhdudlaşmadığını deyən Sayyad Kərim qeyd edib ki, Avropa İttifaqını Azərbaycanın böyük nəqliyyat qovşağına çevrilməsi də maraqlandırır. Azərbaycan artıq Avropa və Asiya arasında nəqliyyat mərkəzinə çevrilir. Bu sahədə böyük imkanlardan biri Bakı-Tbilisi-Qars dəmir yoludur. "Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycandakı sabitlik Avropa üçün olduqca böyük önəm kəsb edir. Azərbaycanda müxtəlif dini icmaların nümayəndələri sülh şəraitində yaşayır və bu, ölkənin tolerant olmasından xəbər verir", - deyən Sayyad Kərim bu gün Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdüklərini qeyd edib. Vurğulayıb ki, bu görüş iclasımızda aparılan müzakirələr üçün çox gözəl zəmin yaradıb.

"Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan üçün prioritet məsələlərdəndir. Bu məsələ ölkəmizin müstəqilliyinin və suverenliyinin bərpa edildiyi vaxtdan gündəmdədir. Bu münasibətlər vaxtilə yardım əsasında başlanıbsa, biz indi qarşılıqlı faydalı əməkdaşlıqdan danışırıq və bunlar hər iki tərəfin marağındadır", - deyən xarici işlər nazirinin müavini Mahmud MƏMMƏDQULİYEV Azərbaycan-Avropa İttifaqı arasında hərtərəfli sazişlə bağlı danışıqların hazırkı vəziyyət barədə məlumat verib. Bildirib ki, tərəfdaşlıq və əməkdaşlıq sazişinin imzalanması, vizaların asanlaşdırılması, mobillik sahəsində tərəfdaşlığa dair müştərək bəyannamə və digər addımlar uğurlu əməkdaşlığa yol açıb. Azərbaycan hazırda Avropa İttifaqının Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Qarşılıqlı hörmət və ortaq maraqlarla bağlı saziş tərəfdaşlığımızın strateji bünövrəsini formalaşdırır, amma yeni sazişin imzalanması da vacib məsələdir.

Mahmud Məmmədquliyev sazişlə bağlı görülən işlərdən danışaraq üç istiqaməti - siyasi təhlükəsizlik, ticarət və investisiya, sektoral məsələləri qeyd edib. Vurğulayıb ki, siyasi baxımından Azərbaycan üçün əsas məsələ qarşılıqlı öhdəliklərin əks etdirilməsidir. Bu, ümumi qaydada qəbul edilmiş beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşılması deməkdir. Bu, bilavasitə beynəlxalq aləmdə tanınmış sərhədlərin etiraf edilməsi məsələsini özündə əks etdirir. Azərbaycan Respublikasının ərazi toxunulmazlığı təkcə Azərbaycan üçün deyil, Avropa İttifaqı üçün də mühüm məsələdir. Bu, həmçinin bütövlükdə regionun sabitliyi və inkişafı ilə bağlı məsələdir. Diqqəti Azərbaycanın işğal altındakı torpaqlarına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldən nazir müavini deyib ki, həmin ərazilərdəki təbii sərvətlər, mal və xidmətlər Avropa İttifaqı ölkələrinin bazarlarına çıxarılır. Qurum beynəlxalq öhdəliklərə əsasən müvafiq qaydaların pozulmasına yol verməməlidir. Fərdi və hüquqi şəxslər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün pozulmasına şərait yaradılmamalıdır. Avropa İttifaqı ölkələrindən olan şirkətlər, onların filialları və törəmə şirkətləri Dağlıq Qarabağ və ətraf ərazilərdə fəaliyyət göstərməklə Azərbaycan qanunvericiliyini pozurlar. Nazir müavini bununla bağlı İşçi Qrupunun yaradılmasını və məsələnin hüquqi müstəvidə həllini tapmasını təklif edib.

Avropa Xarici Fəaliyyət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə icraçı direktorunun müavini, Rusiya, Şərq tərəfdaşlığı, Mərkəzi Asiya və ATƏT üzrə direktor Lük DEVİN ötən 22 ildə Azərbaycanın çox dəyişdiyini, bu müddət ərzində qurumla Azərbaycan arasında münasibətlərin də çox dərinləşdiyini söyləyib. "Azərbaycan bizim strateji enerji tərəfdaşımız və Avropa İttifaqının qaz mənbələrinin şaxələndirilməsi, enerji təhlükəsizliyi üçün əhəmiyyətli olan "Cənub Qaz Dəhlizi" layihəsinin ən mühüm tərəfdaşıdır. Bu fakt Şuranın qərarı ilə də təsdiq edilib. Avropa İttifaqı olaraq biz, siyasi və coğrafi cəhətdən mürəkkəb bir regionda yerləşən dünyəvi dövlət və müsəlman ölkəsi olan Azərbaycandakı sabitliyi, onun regiondakı siyasi rolunu da yüksək qiymətləndiririk. Habelə Azərbaycanın dözümlülük və multikulturalizm sahəsindəki təcrübəsi də əhəmiyyətlidir. Avropa İttifaqı bu təcrübədən ciddi dərslər çıxara bilər", - deyə Lük Devin qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli HƏSƏNOV iclasda çıxış edərək müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin bu ay tamam olacağını diqqətə çatdıraraq bildirib ki, 23 ay yaşayan bu dövlətin baniləri onu klassik Avropa demokratiyası tipində qurmaq və inkişaf etdirmək vəzifəsini qarşıya qoymuşdular. Lakin 1920-ci ilin aprelində bolşevik Rusiyasının hərbi müdaxiləsi nəticəsində Cümhuriyyətin mövcudluğuna son qoyuldu və Azərbaycan 70 il tamamilə fərqli ideoloji sistemdə yaşamağa məcbur edildi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyin ilk illərində Ermənistanın Azərbaycana hərbi təcavüzü, qlobal geosiyasi amillərin təsiri altında cərəyan edən ictimai-siyasi proseslər, sosial-iqtisadi tənəzzül ölkədə ciddi böhran yaratmışdı. Belə bir şəraitdə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev Azərbaycanın ali rəhbərliyinə gəldi və onun xidmətləri sayəsində ölkədə sabitlik bərqərar olundu, demokratik siyasi, humanist sosial münasibətlər sisteminə və liberal iqtisadiyyata keçid təmin edildi, müstəqil dövlətin ilk Konstitusiyası qəbul olundu. Bu ali sənəddə dövlət hakimiyyətinin təşkili, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı, habelə liberal iqtisadiyyatın yaradılmasının təməl prinsipləri təsbit olundu və praktiki fəaliyyət prosesində uğurla tətbiq edildi. Ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin qəti mövqeyi ondan ibarətdir ki, müasir dövrdə siyasi plüralizm, liberal iqtisadi sistem və güclü vətəndaş cəmiyyəti Azərbaycanın dinamik inkişafını təmin edən başlıca amillərdir. Hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (qeyri-kommersiya təşkilatları isə 4 mindən çoxdur), 5 mindən artıq kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları fəaliyyət göstərir.

Plüralizmin müasir Azərbaycan cəmiyyətinin səciyyəvi xüsusiyyətlərindən biri olduğunu diqqətə çatdıran Əli Həsənov ölkədə siyasi partiyaların sərbəst fəaliyyət göstərmələri üçün mükəmməl qanunvericilik bazasının yaradıldığını, partiyaların dövlət qeydiyyatına alınması ilə bağlı çox sadə tələblər müəyyənləşdirildiyini, onların fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsindən vəsait ayrıldığını vurğulayıb. Əli Həsənov bildirib ki, siyasi partiyalardan 40-dan çoxu mövcud hakimiyyətə müxalifət mövqeyində dayanır. 11 partiya, o cümlədən 7 müxalifət partiyası Milli Məclisdə təmsil olunur. Aprelin 11-də keçirilən prezident seçkilərində 6 partiyanın namizədi iştirak edib.

Ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının formalaşmasına və inkişafına daim ciddi önəm verildiyini söyləyən Prezidentin köməkçisi bildirib ki, hazırda Azərbaycan dövləti şuralar və fondlar vasitəsilə vətəndaş cəmiyyəti institutlarına yardım göstərir.

Azərbaycan dövlətinin vətəndaş cəmiyyəti ilə bağlı strateji hədəflərinin "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əksini tapdığını vurğulayan Əli Həsənov vətəndaş cəmiyyətinin inkişafı, dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində bir sıra mühüm işlərin görüldüyünü diqqətə çatdırıb. "Elektron hökumət" portalının, "ASAN xidmət" mərkəzlərinin, "Fərdi elektron pəncərə" sisteminin fəaliyyətə başlaması, QHT-lərə Dövlət Dəstəyi Şurası yanında Hüquq və Monitorinq Komissiyasının, Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması, qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqi bu istiqamətdə atılan mühüm addımlardır.

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsinin dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu diqqətə çatdıran Əli Həsənov bildirib ki, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılıb. Azərbaycanda mətbuat üzərində senzura ləğv olunub, Mətbuat və İnformasiya Nazirliyinin fəaliyyəti dayandırılmaqla dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilib. Prezidentin köməkçisi deyib: "Hazırda Azərbaycanın istənilən vətəndaşı müvafiq quruma xəbərdarlıq edərək media fəaliyyətinə başlaya bilər. Elektron media sahəsində işləmək üçün yalnız domen almaq tələb olunur. Ölkədə internet istifadəçilərinin sayı 80 faizi ötüb. 10 milyona yaxın əhalisi olan ölkədə 3 milyonadək sosial şəbəkə istifadəçisi var. Az.domenində qeydiyyatdan keçmiş internet saytlarının sayı 20 mini ötüb. KİV-lərin ümumi sayı isə 5 mini keçib. Azərbaycan Respublikasının Prezidenti yanında yaradılan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişafı üçün əlverişli şərait yaratmaq, KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir. Bu günədək Fond vasitəsilə KİV-lərə 40 milyon manata yaxın vəsait ayrılıb. Əlbəttə, qeyd edilənlər son həddi deyil. Azərbaycan Prezidenti İlham Əliyev hesab edir ki, ölkədə siyasi islahatlar davam etdirilməli, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər daha da gücləndirilməlidir".

Respublikadakı hüquqi islahatlardan danışan deputat Çingiz QƏNİZADƏ isə bildirib ki, 1995-ci ildən başlayaraq ölkədə bu günədək 63 əfv fərmanı imzalanıb, 11 amnistiya aktı qəbul olunub. Bu, Azərbaycan dövlətinin humanizminin təntənəsidir. Həmin sənədlər 100 minlərlə insanı əhatə edib. Azərbaycanın bu sahədə gördüyü işlər nümunəvi xarakter daşıyır.

"Azərbaycanın neft-qaz sənayesinə xarici sərmayələrin, müasir texnologiyaların cəlb edilməsinin uğurlarının təməlində qanunvericilik, arbitraj prosedurları dayanır", - deyən Milli Məclis sədrinin müavini Valeh ƏLƏSGƏROV enerji və nəqliyyat sahəsində görülən işlərdən ətraflı söhbət açıb. Məlumat verib ki, hazırda rəhbəri olduğu işçi qrupu tərəfindən hazırlanan "Azad iqtisadi zonalar haqqında" yeni qanun layihəsi ikinci oxunuşda Milli Məclisdə qəbul olunub. Sənəd bu yaxınlarda üçüncü oxunuşda qəbul ediləcək. Bu qanun sərmayə qoymaq istəyən fiziki və hüquqi şəxslərin fəaliyyətinə kömək göstərəcək. Ələt Azad Ticarət Zonasında yalnız bu sənədin işləyəcəyinə zəmanət veriləcək. Xarici sərmayədarlar bu qanunu və Azad Ticarət Zonasında daxili qaydaları rəhbər tutaraq işləri apara biləcəklər.

Valeh Ələsgərov xatırladıb ki, neftlə bağlı birinci kontrakt imzalananda Azərbaycan Respublikasında xarici investorların qanuni hüquqlarını qoruyan qanunvericilik yox idi. Buna görə də tarixdə olmayan bir qərar verildi: Dövlət Neft Şirkəti ilə xarici şirkətlər arasında imzalanan hər bir kontrakt Azərbaycan Respublikasının Milli Məclisində qanun olaraq qəbul edildi.

Daha sonra Valeh Ələsgərov diqqəti Dağlıq Qarabağ münaqişəsinə yönəldərək regiondakı münaqişələrin əməkdaşlıq üçün təhlükə olduğunu deyib. O, təhlükələrin aradan qaldırılması üçün həmin münaqişələrin həllinin vacibliyini vurğulayıb.

İclas işini mayın 8-də davam etdirəcək.

**AZƏRTAC**

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FİZİKA İNSTİTUTU

## AŞAĞIDAKI GÖSTƏRİLƏN ELMİ İŞÇİ VƏZİFƏLƏRİNİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ

## E L A N E D İ R

**Ümumi sektoru üzrə:**

**1.1 Yarımkeçiricilərdə və yarımkeçirici nanostrukturlarda köçürmə hadisələri** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 4 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 7 şt.

**1.2 Yarımkeçiricilərdə aşqarlar** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 3 şt.
Böyük elmi işçi - 1 şt.

**1.3 Bərk cisimlərdə rezonans hadisələri** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 2 şt.
Elmi işçi - 2 şt.

**1.4. Almazabənzər və çoxkomponentli birləşmələrin optik və transport xassələri** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 7 şt.
Böyük elmi işçi - 2 şt.
Elmi işçi - 2 şt..

**1.5 Vakuum fotoelektronikası** laboratoriyası üzrə:
Aparıcı mühəndis -2 şt

**1.6 Molekulyar spektroskopiya** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 7 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.
Kiçik elmi işçi - 3 şt..
Aparıcı mühəndis -2 şt
Mühəndis - 2 şt.

**1.7 Kosmik şüa mənbələri fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 2 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.

**1.8 Yüksək gərginliklər fizikası və texnikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 10 şt.
Böyük elmi işçi - 5 şt.
Elmi işçi - 5 şt.
Kiçik elmi işçi - 1 şt.
Aparıcı mühəndis - 5 şt

**1.9 Günəş və hidrogen elementləri** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 2 şt.
Elmi işçi - 1 şt.
Aparıcı mühəndis -1 şt

**Kriogen texnologiyası** şöbəsi üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.
Aparıcı mühəndis -2 şt

**II. İnnovasiya sektoru üzrə:**

**2.1 Quruluş və quruluş-çevrilmələri** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 5 şt.
Elmi işçi - 3 şt.

**2.2 Bionanostrukturlar fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 3 şt.
Elmi işçi - 3 şt.
Kiçik elmi işçi - 1 şt.

**2.3. Bərk cisim nəzəriyyəsi** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 4 şt.
Böyük elmi işçi - 2 şt.
Elmi işçi - 1 şt.

**2.4 Nanokristallar fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 3 şt.
Elmi işçi - 1 şt.

**2.5 Qeyri-kristallik yarımkeçiricilərin fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 7 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 1 şt.

**2.6 Optoelektronika** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 9 şt.
Elmi işçi - 3 şt.
Aparıcı mühəndis -2 şt

**2.7 Nazik təbəqəli strukturlar** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.

**2.8 İnfraqırmızı fotoelektronika və plazma hadisələri** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 3 şt.
Böyük elmi işçi - 4 şt.
Elmi işçi - 7 şt.
Kiçik elmi işçi - 1 şt.
Mühəndis - 2 şt.

**2.9 Yarımkeçirici strukturların fotoelektrik və optik diaqnostikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 3 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.

**2.10 Spektroskopik ellipsometriya** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 4 şt.
Elmi işçi - 4 şt.

**2.11 Nüvə tədqiqatları** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 2 şt.
Kiçik elmi işçi - 2 şt.

**2.12 Yüksək enerjilər fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 3 şt.
Böyük elmi işçi - 3 şt.
Elmi işçi - 5 şt.
Aparıcı mühəndis -1 şt

**2.13 Dinamik sistemlərdə xaos** laboratoriyası üzrə:
Elmi işçi - 2 şt.
Aparıcı mühəndis -1 şt

**2.14 Materialşünaslıq** laboratoriyası üzrə:
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.

**2.15 Kondensə olunmuş hallar və kvant fazalar** laboratoriyası üzrə:
Elmi işçi - 2 şt.

**2.16 Tətbiqi fizika** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.

**2.17 Kristalloqrafiya** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Elmi işçi - 1 şt.
Kiçik elmi işçi - 1 şt.

**2.18 Kvant informatikası** laboratoriyası üzrə:
Kiçik elmi işçi - 2 şt.

**III. Fənlərarası sektoru**

**3.1 Darzolaqlı yarımkeçiricilər və yuxarıtemperaturlu ifratkeçiricilər** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 5 şt.
Böyük elmi işçi - 2 şt.

**3.2 Yarımkeçiricilərdə tarazlıqda olmayan elektron proseslərinin fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 4 şt.
Elmi işçi - 3 şt.
Aparıcı mühəndis -1 şt

**3.3 Heteroquruluşlar fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 4 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 1 şt.

**3.4 Bərk cisim elektronikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 6 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 3 şt.
Kiçik elmi işçi - 1 şt

**3.5 Epitaksial təbəqələr və strukturlar** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 2 şt.
Böyük elmi işçi - 4 şt.
Elmi işçi - 2 şt.
Aparıcı mühəndis - 1 şt
Mühəndis - 1 şt.

**3.6 Akustooptika** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 3 şt.
Elmi işçi - 2 şt.

**3.7 Kristallofizika** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 10 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 5 şt.
Kiçik elmi işçi - 1 şt.
Mühəndis - 1 şt.

**3.9 Nano- və aktiv kompozitlər fizikası** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 3 şt.
Elmi işçi - 4 şt.
Mühəndis - 1 şt.

**3.10 Qeyri-standart nəzarət və diaqnostika** laboratoriyası üzrə:
Aparıcı elmi işçi - 2 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 1 şt.
Mühəndis - 1 şt.

**IV. İnformasiya sektoru üzrə:**

**İnformasiyanın qəbulu, saxlanması və işlənməsi** şöbəsi üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 2 şt.
Aparıcı mühəndis -8 şt

**Yeni texnologiyaların tətbiqi** şöbəsi üzrə:
Aparıcı elmi işçi - 1 şt.
Böyük elmi işçi - 1 şt.
Aparıcı mühəndis -1 şt

**Elmi-texniki informasiya və patent tədqiqatları** şöbəsi üzrə:
Elmi işçi - 1 şt.
Mühəndis - 1 şt.

**Ensiklopediya və terminologiya** şöbəsi üzrə:
Aparıcı elmi işçi - 2 şt.
Böyük elmi işçi - 1 şt.
Elmi işçi - 2 şt.
Aparıcı mühəndis -2 şt

**Xarici əlaqələr** şöbəsi üzrə:
Elmi işçi - 1 şt.
Aparıcı mühəndis - 1 şt.

**İctimaiyyətlə əlaqələr** şöbəsi zrə:
Asissent - 1 şt.

Müsabiqədə elmlər doktorları, fəlsəfə doktorları və böyük təcrübəsi olan elmi işçilər iştirak edə bilər.

Sənədlər müsabiqənin müvafiq tələblərinə uyğun olaraq bu ünvana göndərilməlidir:
Bakı, Az - 1143, H.Cavid 131, tel.: 39-74-23

Müsabiqənin müddəti elan çap olunduğu gündən etibarən 1 aydır.

# Azercell "Əlilliyi olan tələbə və məzunların 1-ci əmək yarmarkası"nda

**Hazırda dünya əhalisinin təxminən 15 faizini fiziki məhdudiyyətli insanlar təşkil edir. Ölkəmizdə isə 6 min nəfərə yaxın əlil, o cümlədən 72 min sağlamlıq imkanları məhdud uşaq var.**

2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlilliyi olan şəxslərin tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması, onların sosiallaşması üçün dövlət tərəfindən mütəmadi müxtəlif tədbirlər həyata keçirilir. Mayın 5-də Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və UNEC-in birgə təşkilatçılığı ilə əlilliyi olan tələbələr üçün keçirilən əmək yarmarkasında da məqsəd məhz əlilliyi olan gənclərin məşğulluğunun təmin edilməsi idi. Dövlət qurumları, yerli və xarici şirkətlərin iştirak etdiyi yarmarkada Azərbaycan rabitə bazarının lider mobil operatoru Azercell Telekom MMC fəallığı ilə seçilib. Şirkətin İnsan Qaynaqları Departamentinin nümayəndələri Azercell-ə işə qəbul olmaq istəyən əlilliyi olan tələbələr üçün informasiya sessiyaları təşkil edib və şirkətdə mövcud olan vakansiyalar barədə iştirakçıları məlumatlandırıblar. İşə qəbul şöbəsinin əməkdaşları Azercell-ə işə qəbul və şirkətin elan etdiyi Tələbə Təqaüdü və Təcrübə proqramları haqqında məlumat veriblər, eyni zamanda məzunları maraqlandıran sualları cavablandırıblar.



Tələbələr mövcud əmək bazarında onların ixtisaslarına olan tələbat barədə məlumat əldə etmək, işəgötürənlərlə ilkin əlaqələr qurmaq, işəgötürənlər isə öz növbəsində potensial kadrların seçimini aparmaq imkanı qazanıblar.

Qeyd edək ki, Azercell əlil uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiya olunmasına yardım göstərmək məqsədilə 2014-cü ildən Uşaq Paralimpiya Komitəsinə dəstək verir.

**Ü.QARAYEV,**
**"Respublika".**

# INVITATION FOR BIDS

**Date: 08/05/2018**

1. Within the framework of the Program "Streamlining the response to the HIV epidemic through strengthening national capacities and scaling up prevention and treatment services, with an emphasis on most at risk population groups and civil society participation" the Ministry of Health of the Republic of Azerbaijan (hereinafter - The Ministry of Health) invites sealed bids from qualified Bidders for delivery of "Laboratory equipment", "Software", and "Adaptation software to agreed in the ToR requirement".
